# COVID–19-dan özümüzü və ordumuzu qoruyaq!

***Son günlər ölkəmizdə yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxanların sayının kəskin artması çox böyük narahatlıq doğurur. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva bununla bağlı bildirib ki, COVID–19 infeksiyası ölkəmizin bütün bölgələrində aşkarlanıb. Lakin bəzi bölgələrdə vəziyyət daha ciddidir və yoluxma daha yüksək rəqəmlərlə ifadə olunduğuna görə, lokal olaraq həmin ərazilərdə karantin rejimi daha sərtləşdirilib, cənub bölgəsində, Şəki və Mingəçevirə giriş-çıxış bağlanılıb. Elə regionlar var ki, orada xəstəlik ciddi şəkildə yüksələn xətlə gedir.***



Hazırda ölkəmizdə azğın düşmənlərin işğal etdiyi torpaqlarımızdan çıxarılması uğrunda haqq savaşı aparılır. Həkimlərə bununla bağlı ehtiyac artıb. Hələ sentyabrın 27-dən əvvəl də həkim və tibb işçilərini qorumaq barədə çağırışlar edilirdi. Bu günlərdə Ümumdünya Səhiyyə Təşkilatı "Koronavirus və yorğunluq" məqaləsini dərc edib. Orada da haqlı olaraq qeyd olunur ki, uzun aylardan bəri pandemiya ilə aparılan mübarizədə hamı yorulub. Lakin bəlkə də ən çox yorulan həkim və tibb işçiləridir, çünki onlar artıq doqquz aya yaxındır ki, sərt rejimdə fəaliyyət göstərirlər. Qısa bir müddətdə onlar rahat nəfəs almağa imkan tapdılar və bundan az sonra indi artıq xəstəliyin ikinci dalğası baş qaldırıb. "Gözəgörünməz" düşmənlə mübarizə aparıldığı bir vaxtda sağlamlıq keşikçiləri düşmən üzərində ümumi qələbəyə öz töhfələrini vermək, bu sahədə zabit və əsgərlərə dəstək göstərmək istəyirlər. Y. Qarayeva deyib: "Koronavirusa yoluxanların sayı artdıqca, hansısa tibb müəssisələrini yenidən pandemiya xəstəxanası kimi istifadə etməyə məcbur oluruq və həmin xəstəxanalar bir gün, bəzən bir neçə saat ərzində dolur. Bir xəstəxananın ortalama çarpayı fondu 200 – 300 arası olur. İndiki yüksək yoluxma şəraitində tibb müəssisəsi bir günün içində xəstələrlə yüklənmiş olur. Hər şey çarpayı ilə həll olunmur, xəstələrə qulluq edən tibb personalına böyük ehtiyac var. Ona görə də bunu dərk edən hər kəs özünü koronavirus infeksiyasına yoluxmaqdan qorumalı və bu yolla bugünkü şəraitdə həkimlərə dəstək göstərməlidir".

Şöbə müdiri bildirib ki, maska taxılması təkcə koronavirusdan deyil, bütün respirator və tənəffüs yolu ilə yoluxa bilən xəstəliklərdən qoruyur. Bu yaxınlarda dərc olunan bir araşdırmada deyilir ki, maskanın taxılması peyvənd kimi sipər rolu oynayır. Onu da etiraf edək ki, maska taxılması tam şəkildə xəstəlikdən qorumur, müəyyən miqdar viruslar ondan keçə bilər, lakin həmin viruslar xəstəlik törətmək iqtidarında yox, az miqdarda olur və insanda bəlli bir immunitet yarada bilir. Yəni, maska mütləq şəkildə taxılmalıdır. Onun vasitəsilə özümüzü, yaxınlarımızı və ətrafımızda olanları qorumalıyıq. Təcrübə göstərir ki, koronavirusla mübarizə dönəmində kəskin respirator virus infeksiyalarına yoluxanların sayı azalıb.

Sosial şəbəkələrdə və bəzi dairələrdə maskadan çox istifadə edilməsinin ziyanlı olduğu və guya hansısa xəstəliyə səbəb olması barədə məlumatlar dolaşır. Pandemiya başlamamışdan əvvəl heç kimdən maskadan istifadə edilməsi tələb olunmurdu. Hazırda isə bu, məcburi bir addımdır. Hər kəs özünü bu çox ağır bir xəstəlikdən qorumalıdır. Maskanın ziyanlı olması barədə danışanlara demək lazımdır ki, həkimlər, cərrahlar, əməliyyat otağında çalışan tibb işçiləri demək olar ki, günün çox hissəsini maskada keçirirlər. Onların hansısa ağciyər və ya digər xəstəliyə tutulması barədə statistika yoxdur. Lakin bu gün onun taxılması məcburi bir addımdır.

TƏBİB-in şöbə müdiri son günlər yoluxmanın artması barədə danışarkən bunun başlıca səbəbini davranışla əlaqələndirib: "Doğrudur, biz payız-qış mövsümündə xəstəliyin artım sürətini gözləyirdik. Lakin hələ havalar soyumayıb. Ona görə də yüksəlişi havaların kəskin soyuması və kəskin respirator virus infeksiyasının artımı ilə əlaqələndirə bilmərik. Deməli, burada daha çox davranış problemləri var, sentyabrda yoluxma səviyyəsinin aşağı enməsi bir qədər arxayınçılıq və rahatlıq yaratdı. Digər bir səbəb son bir ayda baş verən hadisələr nəticəsində kütləvi toplaşma və təmasların artması, bir sıra mərasim və toplaşma zamanı sosial məsafənin gözlənilməsinin və maska taxılmasının tamamilə unudulması oldu".

Y.Qarayeva ölkəmiz tərəfindən alınacaq koronavirusa qarşı peyvənd barədə məlumat verərək deyib: "Peyvənd immunitet yaratmaq qabiliyyətinə malik olmalı, eyni zamanda, fəsad və əks-təsir yaratmamalıdır, onun istifadəsi və saxlanılma qaydaları rahat olmalıdır. COVID–19-u keçirənlər bilməlidirlər ki, həmin xəstəliyi keçirməyin hansı müddətə immunitet yaratdığı hələ məlum deyil. Elə adamlar var ki, xəstəliyi keçirəndən sonra onların orqanizmində anticisimləri yoxlayarkən, yüksək titr aşkarlanır. Lakin elələri də var ki, yoxlama zamanı heç bir titr aşkarlanmır. Bu, o deməkdir ki, xəstəlik keçirmək onları qorumur. Bəlkə də onlar özlərini daha çox qorumalıdırlar, çünki bir dəfə bu ağır xəstəliyi keçiriblər. Ola bilər ki, onların ağciyər və tənəffüs orqanlarında hansısa fəsadlar qalıb, həmin şəxslərin təzədən koronavirusa və ya qripə yoluxması çox ciddi fəsada səbəb ola bilər. Ona görə də hamı bilməlidir ki, peyvənd olduğu təqdirdə eyni vaxtda hamıya vurula bilməz, ilk növbədə, risk qruplarına vurulacaq. Hətta onun istehsalına başlanılsa da, hamıya yetəcək miqdarda da olmayacaq. Bu gün hətta qrip peyvəndinə o qədər böyük tələbat var ki, hər arzusunda olan ölkə onu əldə edə bilmir, çünki tələbat çox böyükdür".

Qeyd etməliyik ki, hətta bəzən adi bir qidadan allergik reaksiya yaranır. Elə insan var ki, hamının sevdiyi və rahat qəbul etdiyi hansısa qida məhsulu onun orqanizmində anafilaktik şoka səbəb olur. Ona görə də hər hansı dərman preparatının hansısa əkstəsiri olduğunu unutmamalıyıq. Ən adi "parasitomol" dərmanının annotasiyasını açıb oxuyanda onun hansısa təhlükəli nəticələr verə biləcəyi qorxu hissi doğurur. Ona görə də peyvəndin özünün də bir dərman vasitəsi olduğunu unutmamalıyıq və fərdi olaraq kimlərdəsə müəyyən fəsad verə bilər. Ona görə də peyvəndin istifadə qaydasında kimlərin və necə istifadə etməsi barədə qaydalar öz əksini tapacaq. Adətən, virus peyvəndləri texnoloji olaraq toyuq yumurtası hüceyrələrində əmələ gətirilir və orada məxsusi olaraq göstərilir ki, məsələn, yumurtaya, toyuq ətinə və s. allergiyası olanların istifadə etməsi məqbul deyil. Bütün dərman preparatlarına, hətta fərdi olaraq qida məhsullarına da hansısa əks-təsir meydana çıxa bilər. Ona görə də bütün sınaq mərhələlərini keçmiş peyvənddən ehtiyat etməməliyik. Hələlik isə ölkəmizə COVID–19-la əlaqədar heç bir peyvənd gətirilməyib və gətirmək fikrimiz də yoxdur. Məqsəd ondan ibarətdir ki, həqiqətən, təsirli, lakin əks-təsiri olmayan, immunitet yarada bilən peyvənd istehsal olunacaqsa, Azərbaycan da onu ilk ala bilən ölkələrin sırasında olsun.

Xatırladaq ki, vaxtilə Avropada H1N1 adlandırılan "donuz qripi" milyonlarla insanın həyatına son qoydu. Mütəxəssislər hazırda həmin virusa qarşı hansısa təsirli bir dərman preparatının olduğunu deməirlər. Müəyyən vaxtdan sonra insanla virus arasında gedən proseslər nəticəsində uyğunlaşmalar olur. Düzdür, həmin virusa yoluxanlar uzun müddət ağır fəsadlarla üzləşir, öskürür, lakin ölümə səbəb olmur və ötüb keçir. Belə bir nəzəri fikir var ki, müəyyən vaxt keçəndən sonra həmin virusla insan arasında da uyğunlaşma mexanizminin ortaya çıxması mümkündür. Məsələ burasındadır ki, COVID --19 yeni virusdur, onda başqa viruslarda olmayan yeni xüsusiyyətlər baş qaldırır. Məsələn, yoluxmanın kəskin dönəmində deyil, sonrakı dönəmində daha kəskin fəsadlar meydana çıxır. Qətiyyən demək olmaz ki, birinci dəfə yoluxanlar xəstəliyi daha yüngül, ikinci dəfə yoluxanlar daha ağır keçirirlər. Həkimlər üçün yoluxma sayından çox ağır xəstələrin sayı narahatlıq doğurur. Hazırda ölkəmizdə 11 min 500-dən çox aktiv xəstə var və onların 200-dən çoxu reanimasiya şöbəsində müalicə alır. Eyni zamanda onu da deməliyik ki, reanimasiyadakı xəstələrdən 40 nəfərdən çoxu süni tənəffüs aparatına qoşulub. Yoluxanların bəzilərinin evdə müalicə alması bir qədər rahatlıq yaradır, reanimasiyada olanların müalicəsi isə uzun çəkir və vəziyyətdən çıxmasına olan ümid daha az olur.

Son həftələr koronavirusa yoluxma hallarında artımda antirekord da qeydə alınıb. Noyabrın 1-də qeydə alınan 1175 yoluxma faktı indiyədək müşahidə etdiyimiz ən yüksək gündəlik yoluxma sayıdır. Son bir ay ərzində həftələr üzrə statistikaya baxsaq, görərik ki, sentyabrın 28-dən oktyabrın 4-dək 668, oktyabrın 5-dən 11-dək 1291, oktyabrın 12-dən 18-dək 2982 və oktyabrın 19-dan 25-dək 4995 yeni yoluxma halı müşahidə olunub. Son həftədə (oktyabrın 26-dan noyabrın 1-dək) yoluxanların sayı 6 min 485 olub.

Virusa yoluxma hallarında artım təkcə ölkəmizdə deyil, bir çox Avropa ölkələrində də müşahidə edilir. ÜST-ün Baş katibi Tedros Adanom Qebreyesusun pandemiya mütəxəssisləri ilə təşkil etdiyi konfransda Avropa qitəsində ciddi qabaqlayıcı tədbirlərin görülməsinin vacibliyi vurğulanıb. Baş katib bildirib ki, ötən həftə dünya miqyasında yoluxma saylarında ən yüksək rəqəm qeydə alınıb. Şimal yarımkürəsindəki bir çox ölkədə xəstəxanaya müraciətlərin təşvişdoğurucu şəkildə artdığına diqqət çəkən Qebreyesus, xüsusilə, Avropa və Şimali Amerikada reanimasiya şöbələrinin sürətlə dolduğunu söyləyib. ÜST Fövqəladə Hallar Proqramının direktoru Mayk Rayn isə ötən həftə dünya miqyasındakı bütün yoluxmaların 46 faizinin, ölümlərin isə üçdən birinin Avropa bölgəsində qeydə alındığını diqqətə çatdırıb: "Beləliklə, Avropa bölgəsinin hazırda xəstəliyin mərkəzi olduğundan şübhə qalmır. Bu virusun qarşısını almalıyıq. Sonra da virusdan irəlidə qalmalıyıq".

Məhz buna görə də, xüsusilə hazırkı dövrdə məsuliyyətimiz dəfələrlə artıq olmalıdır. Torpaqlarımızın düşmən tapdağından azad edilməsi uğrunda mübarizəmiz davam edir, cəbhədə döyüşən əsgər-zabit həyatini düşünməliyik. İndi tibb personalına məlum düşmənlə üzbəüz vuruşanların daha çox ehtiyacı var. Biz özümüzü qoruya bilərik, ön cəbhədəkilər üçün bu mümkünsüzdür. Ona görə də hər kəsə kütləvi toplanma yerlərindən uzaq olmağı, buna məcbur olduqda maska taxmağı, sosial məsafə saxlamağı və əl gigiyenasına əməl etməyi tövsiyə edirik.

*Zərifə BƏŞİRQIZI,*
*"Xalq qəzeti"*